# HƏYAT VƏ FƏALİYYƏTİNƏ DAİR ƏSAS TARİXİ HADİSƏLƏRİN XPONOLOGİYASI

**1141** Nizami Gəncəvi - Cəmaləddin İlyas ibn Yusif Nizami Gəncəvi qədim Gəncə şəhərində anadan olmuşdur.

**1169** Dərbənd hökmdarı Nizamini öz sarayına cəlb etmək üçün ona Afaq adlı bir kəniz göndərmişdir. Şair Afaqı qəbul etmiş və onunla evlənmişdir.

**1174** Nizaminin Afaqdan Məhəmməd adlı bir oğlu olmuşdur.

**1176-1178** Nizami Gəncəvi ilk böyük əsəri olan "Sirlər xəzinəsi"ni yazmışdır.

**1179** Şairin həyat yoldaşı Afaq vəfat etmişdir və o, ikinci dəfə Gövhər adlı bir qadınla evlənmişdir.

**1180** Nizami Yaxın Şərqdə ilk romantik poema sayılan "Xosrov və Şirin" poemasını bitirib Cahan Pəhləvana hədiyyə göndərmişdir.

**1186** Cahan Pəhləvanın ölümündən sonra onun yerinə keçmiş Qızıl Arslan Nizami ilə görüşmək üçün Gəncəyə gəlmişdir.

**1188** Nizami üçüncü böyük əsəri "Leyli və "Məcnun" poemasını yazmışdır.

**1193-1197** Nizami Ağsunqar Körpə Arslana ithaf etdiyi "Yeddi gözəl" poemasını yazmışdır.

**1200** Nizami yaradıcılığının ən uca zirvəsi sayılan "İskəndərnamə"ni yazılıb qurtarmışdır.

**1209** Nizami Gəncəvi qədim Gəncə şəhərində vəfat etmışdir.
13-14 əsrlər Nizaminin Gəncə şəhərinin yaxınlığında – Əhmədli kəndində dəfn olunduğu yerdə - qəbri üstündə qədimdən ağ əhəng daşından türbə tikilmişdir.

**1891** XIX əsrin 40-cı illərində tamamilə dağılmaq təhlükəsi qarşısında qalan türbənin ciddi təmirə ehtiyyacı olduğuna görə Nizami Gəncəvinin anadan olmasının 750-ci ildönümü münasibətilə türbənin yerində Nizami Gəncəvinin məqbərəsi ucaldılmışdır.

**1896** M.Tevinkovun "Qədim Rusiya ilə Xəzəryanı dövlətlərin münasibətlərinin Nizaminin "İsgəndərnamə" poemasında bir mənbə kimi xarakteristikası" adlı kitabı Tiflisdə rus dilində cap olunmuşdur.

**1907** "Nizaminin evladına nəsihəti" M.Hadinin tərcümə- sində "Feyuzat" jurnalında nəşr edilmişdir.

**1909** İlk dəfə Nizami haqqında Mirzə Məhəmməd Axundzadə "Şeyx Nizami" adlı kitabını Gən- cədə çap etdirmişdir.

**1932** Nizami Gəncəvinin məqbərəsi üzərinə müvəqqəti abidə qoyulur.

**1939** Azərbaycan SSR XKS-nin "Böyük Azərbaycan şairi Nizami Gəncəvinin anadan olması gününün 800 illiyinə həsr edilən daimi sərgi (ev-muzeyi) təşkil etmək haqqında" 1939-cu il 1 noyabr tarixli 4972 №-li Qərar qəbul edilmişdir.

**1939** Nizami Gəncəvinin "Şeirlər" kitabı capdan cıxmışdır.

**1940** Moskvada Nizamiyə həsr edilmiş elmi sessiya və iclas keçirilmişdir.

**1940** Nizami əsərlərinin tərcüməsi üzrə Bakıda keçirilmiş ümümittifaq müşavirə.

| | |
|---|---|
| **1940** | Azərbayçan XKS qərarına görə Nizaminin epoxası, həyatı və yaradıcılığı haqqında konkurs elan edilmişdir. |
| **1941** | Anadan olmasının 800 illik yubiliyi müharibə şəraitində Leninqradda (indiki Sankt-Peterburq) Leninqrad Dövlət Ermitajında qeyd edilmişdir. |
| **1941** | EA Azf. Nizami adına Dil və Ədəbiyyat Institutunun hazırladığı "Nizami lirikası" kitabı capdan çıxmışdır. |
| **1945** | Ev-muzeyinin açılışı olmuşdur.Sonradan Nizami muzeyi Azərbaycan Ədəbiyyatı Muzeyinə çevrilmişdir. |
| **1946** | Kirovabadda (indiki Gəncədə) Nizami Gəncəvinin abidəsi qoyulmuşdur. Heykəltəraş F.H.Əbdürrəhmanovdur. |
| **1947** | Keçən əsrin 40-cı illərində dağılmış qədim məqbərənin yerində daş məqbərə ucaldılmışdır. |
| **1947** | SSRİ Nazirlər Sovetinin 674 № -li 24 mart 1947-ci il tarixli qərarına əsasən memar S.Ə.Dadaşov və M.Ə.Hüseynovun, heykəltəraş F.Əbdürrəhmanovun layihələri üzrə Azərbaycan şairi Nizami Gəncəviyə Bakı şəhərində abidə qoyulmuşdur. |
| **1947** | Nizami Gəncəvinin anadan olmasının 800 illiyi dövlət səviyyəsində təntənəli surətdə qeyd edilmişdir. |
| **1947** | Moskva, Leninqrad, Gürcüstan, Özbəkistan, Ermənistan, Türkmənistan, Litva, Latviya, Dağıstanda Nizam Gəncəvinin anadan olmasının 800 illiyi dövlət səviyyəsində təntənəli surətdə qeyd edilmişdir. |
| **1947** | Nizaminin anadan olmasının 800 illiyi münasibətilə Moskvada SSRİ Elmlər Akademiyası və Sovet Yazıçıları İttifaqı təntənəli iclas keçirmişdir. |
| **1979** | Azərbaycan KP MK "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsini, nəşrini və təbliğini yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul etmişdir. |
| **1979** | Azərbaycanda ənənəvi poeziya günləri keçirilir. |
| **1980** | Bakıdakı rayonların birinə Nizaminin adı verilmişdir. |
| **1981** | Nizami Gəncəvinin anadan olmasının 840 illiyi keçirilməsi münasibətilə qərar qəbul edilmişdir. |
| **1981** | "Nizami adına medal təsis edilməsi haqqında" Azərbaycan SSR Nazirlər Soveti qərar qəbul edilmişdir. |
| **1981** | Nizami Gəncəvinin adına SSRİ-nin poçt markası buraxılmışdır. |
| **1981** | Nizami Gəncəvinin anadan olmasının 840 illiyi Moskvanın Ittifaqlar Evinin Sütunlu salonunda təntənəli qeyd edilmişdir. |
| **1981** | Nizami Gəncəvinin anadan olmasının 840 illiyi ilə əlaqədar olaraq V.İ.Lenin adına Sarayda təntənəli yığıncaq keçirilmişdir. |
| **1990** | "Nizami Gəncəvinin anadan olmasının 850 illiyi haqqında" Azərbaycan KP MK qərar qəbul etmişdir. |

| | |
|---|---|
| **1990** | Bakıda Nizami Gəncəvinin adına Beynəlxalq Elm və Mədəniyyət Mərkəzi açılmışdır. |
| **1991** | N.Gəncəvinin anadan olmasının 850 illiyi qarşısında yubiley tədbirləri keçirilməsi haqqında SSRİ mədəniyyət naziri N.N.Qubenkonun Əmri verilmişdir. |
| **1991** | Moskvada Nizami Gəncəvinin abidəsinin açılışı olmuşdur. |
| **1991** | Nizami Gəncəvinin 850 illiyi münasibəti ilə buraxılmış SSRİ-nin 1 rublluq yubiley monetası buraxılmışdır. |
| **1991** | N.Gəncəvinin 850 illiyi Rusiyada və Belarusun paytaxtı Minsk şəhərində qeyd edilmişdir. |
| **1991** | Təbriz Universitetində Nizami Gəncəvinin 850 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfrans keçirilmişdir. |
| **1991** | N.Gəncəvinin 850 illiyi münasibətilə İraqda beynəlxalq konqres keçirilmişdir. |
| **1991** | Nizami Gəncəvinin 850 illik yubileyi şərəfinə Əlişir Əhmədovun təbliğat səyahətinə çıxmışdır. |
| **1992** | Türkiyənin paytaxtında “Azərbaycan şairi Gəncəvi Nizami simpoziumu” keçirilmişdir. |
| **1993** | Adına kəsilmiş pul - 500 Azərbaycan manatı tədavülə buraxılmışdır. |
| **1995** | İran İslam Respublikasının müştərək müəssisəsi Azərbaycan-İran İslam Vəhdət ocağının orqanı olan “Nizami Gəncəvi” jurnalı capdan cıxmışdır. |
| **1996** | Nizami Gəncəvinin Lüksemburqda Rusiya Federasiyası Səfirliyinin ərazisində abidəsi ucaldılmışdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev açılışda çıxış etmişdir. |
| **1998** | “Nizami Gəncəvinin Sankt-Peterburq şəhərində abidəsinin qoyulması haqqında” Azərbaycan Respublİkası Prezidenti Sərəncam vürmişdir. |
| **2002** | Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Nizami Gəncəvinin Sankt-Peterburq şəhərində abidəsinin açılışında iştirak etmişdir. |
| **2004** | Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistanda dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin təntənəli açılış mərasimində iştirak etmişdir. |
| **2004** | Nizami Gəncəvinin külliyyatı ilk dəfə latın qrafikası ilə nəşr edilmişdir. |
| **2005** | Azərbaycan Prezidenti İlham Əliyev Moldovanın Kişinyov şəhərində dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin təntənəli açılış mərasimində iştirak etmişdir. |
| **2006** | Nizami Gəncəvinin möhtəşəm məqbərəsi 20 m hündürlüyündə silindrik formada mərmər bina və ətrafındakı park ilə yeniləşmişdir. |
| **2007** | Strasburqdakı “Azərbaycan evi” və Universitetin Türkologiya departamentinin “Nizami Gəncəvi və dünya mədəniyyəti” mövzusunda tədbir təşkil etmişdir. |
| **2008** | Mədəniyyət seriyası çərçivəsində Azərbaycanın dahi şairi, mütəfəkkir Nizami Gəncəvinin xatirəsinə həsr olunmuş 100 manat dəyərində qızıl xatirə sikkələri istehsal olunaraq tədavülə buraxılmışdır. |
| **2009** | Nizaminin vəfatının 800 illiyi qeyd olunmuşdur. |

| | |
|---|---|
| **2010** | YUNESKO-nun Mərkəzi Asiya Araşdırmaları İnstitutu Səmərqənddə "Nizami və Nəvai: tarixi və mədəni əlaqələr" mövzusunda Beynəlxalq elmi konfrans keşirmişdir. |
| **2011** | Azərbaycan Respublikası Prezidenti İlham Əliyev "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır. |
| **2011** | Nizami Gəncəvinin 870 illik yubileyinin Rusiya Dövlət Ermitajında keçirilməsi ilə bağlı razılıq əldə olunmuşdur. 2012 Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Goranboyda Nizami Gənvi adına parkın açılışında iştirak etmişdir. |
| **2012** | İtalyanın Roma şəhərində dahi Nizami Gəncəvinin abidəsinin açılışı olmuşdur. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişdir. |
| **2012** | Prezident İlham Əliyev Gəncədəki "Xəmsə" abidə kompleksində Nizami Gəncəvinin heykəlinin açılışında iştirak etmişdir. |
| **2012** | Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2011-ci il sərəncamına əsasən dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubiley tədbirlərinin keçirilməsi çərçivəsində 30 sentyabr şairin vətəni Gəncə şəhərində keçirilmiş xüsusi toplantıda təsis edilmişdir. |
| **2013** | Bakıda Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Madrid Klubunun və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin birgə təşkilatçılığı ilə Birinci Cənubi Qafqaz Forumu işə başlamışdır. |
| **2013** | Nizami Gəncəvi adına Azərbaycanşünaslıq və Qafqazşünaslıq Mərkəzi 2013-cü ildə Oksford Universiteti nəzdində yaradılmışdır. |
| **2014** | Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Madrid Klubunun təşkilatçılığı, BMT, Dünya Elmlər və Mədəniyyət Akademiyası, Roma Klubu, İsgəndəriyyə Kitabxanası və digər təşkilatların birgə əməkdaşlığı çərçivəsində keçirilən II Qlobal Açıq Cəmiyyətlər Forumu 2015-ci il və ondan sonrakı mərhələdə dünyanın davamlı inkişafına həsr olunmuşdur. |
| **2015** | Azərbaycanın paytaxtında Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə III Qlobal Bakı Forumu işə başlayıb. |
| **2016** | Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən IV Qlobal Bakı Forumunda münaqişələrin qarşısının alınmasında dinlərarası dialoqun rolu, miqrasiya, multikulturalizm və inteqrasiya məsələləri, o cümlədən qlobal təhlükəsizliyin təmin olunması kimi mühüm məsələlər müzakirə edilib. |
| **2017** | Azərbaycanın paytaxtında Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən V Qlobal Bakı Forumunun rəsmi açılışı olub. |
| **2018** | Azərbaycanın paytaxtında Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "İnklüziv cəmiyyətlərin qurulması üçün fərqliliklərin aradan qaldırılması" mövzusunda VI Qlobal Bakı Forumu işə başlayıb. |
| **2019** | Azərbaycanın paytaxtında Prezident İlham Əliyevin himayəsi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə VII Qlobal Bakı Forumu işə başlayıb. |
| **2021** | Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2021-ci il Azərbaycan Respublikasında "Nizami Gəncəvi İli" elan edilib |

**2021** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı videoformatda müzakirələri keçirilib.

**2021** Azərbaycanın Avropa Şurası yanında Daimi Nümayəndəliyi və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə qurumun mənzil-qərargahında Nizami Gəncəvinin anadan olmasının 880 illiyinə həsr edilmiş sərgi açılmışdır.

**2021** Oktyabrın 5-də Parisdə UNESCO-nun mənzil-qərargahında qurumdakı Azərbaycan Daimi Nümayəndəliyi və UNESCO Baş Direktorluğunun birgə təşkilatçılığı ilə "Nizami Gəncəvi İli" çərçivəsində Azərbaycanın böyük mütəfəkkiri və şairi Nizami Gəncəvinin anadan olmasının 880 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

**2021** Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə noyabrın 4-də "COVID-19-dan sonrakı dünya" mövzusunda növbəti VIII Qlobal Bakı Forumu işə başlayıb.